

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 128 (23.039)

*12 iyul 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun baş katibi Yens Stoltenberqin dəvəti ilə NATO-nun Zirvə toplantısında iştirak etmək üçün iyulun 10-da Belçika Krallığının paytaxtı Brüssel şəhərinə səfərə gedib.

Dövlətimizin başçısı iyulun 11-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb.

Prezident İlham Əliyev Avropa İttifaqının mənzil-qərargahına gəlib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun görüşü olub.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun iştirakı ilə "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması mərasimi olub.

* * *

İyulun 11-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin görüşü olub.



## R.Ə.Məmmədovun Naxçıvan Muxtar Respublikasının təhsil naziri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəhman Əli oğlu Məmmədov Naxçıvan Muxtar Respublikasının təhsil naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 11 iyul 2018-ci il*

## Bu ilin ötən dövründə 3670 yeni abunəçi üçün internet xətti çəkilib

Muxtar respublikada yeni texnologiyaların tətbiqi sahəsində həyata keçirilən tədbirlər imkan verir ki, əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətləri göstərilsin. 2018-ci ilin birinci yarısında da bu sahədə müəyyənləşdirilən tədbirlər uğurla davam etdirilib, yeni nəsil avtomat telefon stansiyaları qurulub, 1136 yeni telefon nömrəsi istismara verilib.

Bu dövrdə muxtar respublikada dayanıqlı və keyfiyyətli rabitə xidmətlərinin göstərilməsi işi diqqətdə saxlanılıb, ümumilikdə, muxtar respublika üzrə 12 min 515 metr fiber-optik kabel xətti çəkilib. "Evədək optika" layihəsi çərçivəsində 14 fərdi mənzil fiber-optik kabel xətti ilə, 3670 yeni abunəçi isə internetlə təmin olunub.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının internet səhifələrində mətbuat xidməti bölməsi yaradılıb, 221 dinləyicinin kompüter kurslarında təhsil alması təmin edilib. Dövlət Baş Sığorta Agentliyi və onun rayon idarələri arasında sənəd mübadiləsi üçün daxili şəbəkə quraşdırılıb, Dövlət Sosial Müdafiə Fondunun server və şəbəkə avadanlıqları yenilənib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Avtonəqliyyat xidməti tələblərə uyğun qurulub

Muxtar respublikada avtonəqliyyat xidməti günün tələbləri səviyyəsində qurulub. Həyata keçirilən tədbirlər, yaradılan müasir infrastruktur, xüsusilə yeni sərnişin avtobuslarının alınıb gətirilməsi nəqliyyat xidmətinin keyfiyyətini xeyli artırıb.

Nəqliyyatın intensiv hərəkətinin təmin olunması 2018-ci ilin ötən dövründə də diqqətdə saxlanılmış, tədbirlər keçirilmiş, taksi və avtobus sürücülərinin muzeylərdə seminar-məlumatlandırılması işi davam etdirilmişdir. Ötən dövrdə muxtar respublikanın bütün yaşayış məntəqələri marşrutla təmin olunmuş, 496 taksi tərəfindən əhaliyə xidmət göstərilmişdir.

2018-ci ilin ötən dövründə İran İslam Respublikasından keçməklə Naxçıvan-Bakı avtobus marşrutu ilə Naxçıvandan Bakıya 6 min 202, Bakıdan Naxçıvana isə 6 min 829 sərnişin daşınmışdır.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## Gənclər hərbi xidmətə yola salınır



"Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 may tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin Çağırış bölməsinin rəisi, kapitan Müşfiq Tağıyev açıb.

Mərasimdə xidmətin Naxçıvan Şəhər İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik-leytenant Sultan Zamanov, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Naxçıvan Şəhər Təşkilatının sədri Davud Süleymanov, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov çıxış edərək hərbi xidmətə yola salınanlara uğurlar arzulayıblar.

Həmin gün Babək rayonunda da gənclər hərbi xidmətə yola salınıb.

**✍ Səbuhi HƏSƏNOV**

## Torpaq sahələrinin əkin dövriyyəsinə qatılması prosesi uğurla davam etdirilir

Muxtar respublikada aqrar sahədə həyata keçirilən uğurlu siyasət əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına, kənd təsərrüfatının bütün sahələrinin inkişafına geniş imkanlar açmışdır. Kənd təsərrüfatının yüksək sürətlə inkişafı əkin dövriyyəsinə yeni torpaq sahələrinin qatılmasını zəruri etmişdir. Əkin üçün yararsız hesab edilən və uzun illər istifadəsiz qalan torpaq sahələrinə yeni suvarma kanallarının çəkilməsi, müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması mühüm əhəmiyyətə malik olmuşdur.

Belə ki, ötən dövrdə tutumu 100 milyon kubmetr olan Heydər Əliyev Su Anbarı inşa olunaraq istifadəyə verildikdən sonra Babək rayonunda 4364, Culfa rayonunda 2311, Şahbuz rayonunda isə 244 hektar olmaqla, ümumilikdə, 6919 hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə qatılmış və bütövlükdə, su anbarı vasitəsilə suvarılan torpaqların sahəsi 16 min 830 hektara çatmışdır. Həmçinin Kəngərli rayonunda 5800 hektar torpaq sahəsinə suvarma suyunun verilməsi üçün Uzunoba Su Anbarından 32,2 kilometr uzunluğunda suvarma xətti çəkilərək sahənin bir hissəsinə öz axını ilə, bir hissəsinə isə yeni nasos stansiyası tikilməklə 8 kilometr uzunluğunda təzyiqli boru xətti çəkilərək suvarma suyu verilmişdir. Babək rayonunun Kərimbəyli və Kültəpə kəndlərində 217 hektar yeni torpaq sahəsinin əkin dövriyyəsinə qatılmasını təmin edən suvarma şəbəkəsinin, Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərində 117 hektar ərazini əhatə edən qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılmışdır. Babək rayonunun Nehrəm kəndində 1170, Culfa rayonunun Bənəniyar kəndində isə 1050 hektar, ümumilikdə, 2220 hektar torpaq sahəsində müasir suvarma sistemi qurulmuşdur. Bundan əlavə, tutumu 150 milyon kubmetr olan Arpaçay Su Anbarı Şərur, Sədərək və Kəngərli rayonlarında suvarma işini xeyli yaxşılaşdırmışdır. Ümumilikdə, muxtar respublikada 62 min hektara yaxın əkinəyararlı torpaq sahəsi mövcuddur ki, bunun da 52 min hektara yaxını suvarılan sahələrdir.

Muxtar respublikamızda görülən işlərin nəticəsidir ki, kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin artırılması ilə bağlı atılan uğurlu addımlar öz bəhrəsini verməkdədir. Belə ki, həyata keçirilən tədbirlərin nəticəsi olaraq muxtar respublikada 2018-ci ilin məhsulu üçün qəti əkin sahəsi 61 min 935 hektar təşkil etmişdir. Bu da 2017-ci illə müqayisədə 404 hektar çoxdur.

***Muxtar respublikada qəti əkinin dinamikası***




2018-ci ildə muxtar respublikada cəmi əkin sahəsinin 57,8 faizini dənli və dənli-paxlalılar (qarğıdalı ilə birlikdə), 10 faizini tərəvəz bitkiləri, 4,5 faizini ərzaq üçün bostan bitkiləri, 5,2 faizini kartof, 0,5 faizini texniki bitkilər, 22 faizini isə yem bitkiləri təşkil etmişdir.

Aqrar sahədə nəzərdə tutulan xidmət işlərinin yerinə yetirilməsini sürətləndirmək, sahibkarların əməyini yüngülləşdirmək, onların lazımi texnika ilə vaxtında və güzəştli şərtlərlə təmin edilməsi məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 194 ədədi 2018-ci ilin yanvar-iyun aylarında olmaqla, cəmi 2248 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmişdir.

Həmçinin görülən tədbirlər nəticəsində istehsal olunmuş məhsulların ilboyu keyfiyyətli şəkildə istehlakçılara çatdırılması üçün muxtar respublikada ümumi tutumu 14 min 30 ton olan 31 soyuducu anbar istifadəyə verilmiş və hazırda bu istiqamətdə müvafiq tədbirlər davam etdirilməkdədir.

Hazırda muxtar respublikada yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması istiqamətində müasir meliorasiya-irriqasiya sistemlərinin qurulması işləri aparılır. Belə ki, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 600 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilir.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikası ərazisində meliorativ tədbirlərin həyata keçirilməsi haqqında" 2018-ci il 16 may tarixli Sərəncamı ilə muxtar respublikada "Pivot" layihəsi çərçivəsində 1000 hektar əkin sahəsində müasir suvarma (yağış-yağdırma) sistemlərinin quraşdırılmasına başlanılması kənd təsərrüfatının daha da inkişafına müsbət təsir göstərəcəkdir.

Son dövrdə şanlı ordumuzun həyata keçirdiyi "Günnüt" əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi daxil olmaqla, ümumilikdə, 11 min hektara yaxın ərazi erməni işğalından azad olunmuşdur ki, bunun da 8 min hektarı kənd təsərrüfatı üçün yararlıdır.

Bütün bunlar muxtar respublikada iqtisadi sabitliyin və sosial dayanıqlığın başlıca şərti olan ərzaq təhlükəsizliyinin təminatına mühüm töhfədir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı

# Yüksək tarixi-mədəni zənginliklərə, elmi potensiala malik Naxçıvan "İslam Mədəniyyətinin Paytaxtı" adını uğurla daşıyır

***Müasir dövrdə dünya xalqları arasında mövcud əlaqələri daha da inkişaf etdirmək üçün müxtəlif layihələr həyata keçirilir. Bu sırada digərləri ilə yanaşı, YUNESKO tərəfindən müdafiə edilən "İslam Mədəniyyətinin Paytaxtı" layihəsini xüsusilə qeyd etmək olar.***

Məlum olduğu kimi, İslam Ölkələrinin Elm, Təhsil və Mədəniyyət Təşkilatına – İSESKO-ya üzv olan İslam dövlətlərində də bu gün əhəmiyyətli tədbirlər həyata keçirilir. "İslam Mədəniyyətinin Paytaxtı" layihəsi bunlardan biri və ən əhəmiyyətlisidir. Bu layihə haqqında ilk qərar İSESKO-nun təklifi ilə 2001-ci ilin sonlarında qəbul olunmuşdur. Belə ki, Qətərin paytaxtı Doha şəhərində keçirilən İslam ölkələrinin mədəniyyət nazirlərinin III konfransında qərara alınıb ki, İslam Mədəniyyətinin Paytaxtı İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin şəhərləri arasından seçilməlidir. Səudiyyə Ərəbistanının Məkkə şəhəri ilk İslam Mədəniyyəti Paytaxtı elan edilmiş, ölkəmizin paytaxtı Bakı şəhəri isə 2009-cu ildə bu ada layiq görülmüşdür. Həmin ilin oktyabrında Bakıda keçirilən İslam konfransına üzv ölkələrin mədəniyyət nazirlərinin 6-cı konfransı çərçivəsində isə Naxçıvan şəhərinin 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı elan olunması hər birimizə qürur hissi yaşatdı.

Məlumat üçün bildirək ki, 2016-cı il noyabr ayının 25-də Naxçıvan şəhərinin 2018-ci il üçün "İslam Mədəniyyətinin Paytaxtı" elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk, 2018-ci ilin iyun ayının 7-də ikinci iclası keçirilmiş, görülmüş və görüləcək işlər müzakirə olunmuşdur. Bundan əlavə, ötən dövrdə muxtar respublikadakı türk-islam mədəniyyəti abidələri bərpa olunmuş, İslam dini və onun dəyərləri ilə bağlı kitablar nəşr edilmişdir. Həmçinin "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipi və suvenirlər hazırlanmış, üzərində loqotip əks olunmuş döş nişanları, zərflər, poçt markaları buraxılmışdır.

İyunun 20-də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri və "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində iştirak etmək üçün muxtar respublikaya gələn xarici ölkələrin nümayəndələri ilə görüşmüş, Nuh Peyğəmbərin Vətəni olan Naxçıvanın qədim tarixindən, burada dini dəyərlərin qorunub yaşadılması sahəsində görülən işlərdən və türk-islam mədəniyyətinin inkişafından danışmışdır.

"Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev, Əlcəzairin mədəniyyət naziri Əzzədin Mihobi, Qvineya Respublikasının mədəniyyət, idman və tarixi mədəni irs naziri Sanosi Bantama Sou, İndoneziya Respublikasının təhsil və mədəniyyət naziri Muhacir Əfəndi, Tacikistan Respublikasının mədəniyyət naziri Şəmsəddin Şodibek, Özbəkistanın mədəniyyət naziri Bəxtiyar Seyfullayev, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının Baş katibi Düsen Kaseinov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə və digər qonaqlar ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edərək gül dəstələri qoymuş və ulu öndərin xatirəsinə ehtiramlarını bildirmişlər. Sonra tədbir iştirakçıları Heydər Əliyev Muzeyinə gələrək dahi şəxsiyyətin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlara baxmışlar.



Tədbir başlanmazdan əvvəl fotoqraf Hüseyn Bağırovun "Mənim Naxçıvanım" fotosərgisinə baxış olmuşdur. Naxçıvanın bütün gözəlliklərini, özünəməxsus təbiətini və müasir inkişafını nümayiş etdirən fotolar maraqla qarşılanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində əlamətdar tarixi günlərin yaşandığını bildirərək demişdir: ***"İslam ölkələri ilə əməkdaşlığa xüsusi diqqət yetirən ümummilli liderimiz Heydər Əliyev deyirdi: "İslam dini sülh, qardaşlıq və əməkdaşlıq dinidir... Bu, tarix boyu Azərbaycanda öz əməli ifadəsini tapmışdır". Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də dini-mənəvi dəyərlərimizin yaşadılmasına xüsusi diqqət yetirir və dünyaya dövlət-din münasibətlərinin tənzimlənməsi modelini təqdim edir. Ölkəmizdə mövcud olan dini dözümlülük və tolerantlıq, multikultural dəyərlər nümunə kimi götürülür.***

***Belə bir şəraitdə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi barədə qərarın qəbul olunması tarixi hadisədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, "Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır".***

Tədbirdə çıxış edən İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri demişdir: "Bu möhtəşəm tədbirdə sizinlə olmaqdan böyük məmnuniyyət hissi duyuruq. Naxçıvan 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir. İlk növbədə, mən Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə minnətdarlığımı bildirmək istərdim. O, öz ölkəsinə və eyni zamanda İslam təşəbbüslərinə böyük dəstək verir. Həmçinin səmimi qəlbdən və ürəkdən minnətdarlıq hissi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova da çox sağ ol demək istərdim. Bu cür mükəmməl təşkilatçılıq, təbii ki, danılmazdır".

Qürur hissi keçiririk ki, Əbdüləziz Osman əl-Tuveycri ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda bu istiqamətdə keçirilən tədbirləri çox yüksək dəyərləndirərək demişdir: "Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuşdur. O, İslam dininin yayılmasında və eyni zamanda Müsəlman İntibahının bərqərar olunmasında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratmışdır. Dinlə bağlı sərt qadağaların mövcud olduğu sovet dövrü Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçmişdir. Həmin məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. Həm Naxçıvan, həm də Azərbaycanın digər bölgələrində müsəlman şiə və sünniləri arasında heç bir dini və mədəni ziddiyyət mövcud deyildir və bu birgəyaşama mədəniyyəti dünya üçün bir nümunədir. Naxçıvanda bu sahədə mövcud olan çoxəsrlik tolerant mühit onun İslam mədəniyyəti paytaxtları arasında xüsusi yerini müəyyən edir. Bütün bunlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova minnətdarlıq edirik".

Qeyd olunmalıdır ki, "İslam Mədəniyyətinin Paytaxtı" statusunu qazanmaq üçün həmin şəhər müəyyən şərtlərə cavab verməlidir. Başlıca şərtlərdən birincisi odur ki, paytaxt seçilən şəhər zəngin tarixə malik olmalıdır. Həmin şəhərin elmin, incəsənətin və ədəbiyyatın inkişafına xüsusi töhfələr verməsi də əsas tələblər sırasındadır. Digər bir şərt isə paytaxt seçiləcək şəhərin həm İslam, həm də, bütövlükdə, dünya mədəniyyətində yeri olmasıdır. Bu ada layiq şəhərdə elmi mərkəzlərin, mədəni-kütləvi tədbirləri təşkil edən təsisatların fəaliyyət göstərməsi də vacib şərtlərdəndir.

Bu şərtlərə cavab verən həmin sahələr üzrə geniş söhbət açmaq olar. Ölkəmizin bu ayrılmaz tərkib hissəsi həm qədimliyinə, həm mədəni zənginliyinə, həm də yerləşdiyi coğrafi mövqeyinə görə böyük strateji əhəmiyyətə malikdir. Elə ona görə də Naxçıvan tarixin bütün dönəmlərində qonşu ölkələrin diqqətini özünə çəkib.

Əsrlərboyu çox böyük inkişaf yolu keçən Naxçıvan şəhəri hələ eramızın əvvəllərindən mühüm iqtisadi-mədəni və inzibati mərkəz kimi tanınıb, tarixdə iz qoyan bir sıra əhəmiyyətli dövlətlərin dayaq məntəqəsi, paytaxtı olub. Naxçıvan şəhəri Avropa ilə Asiyanı birləşdirən Böyük İpək Yolunun üzərində yerləşir. Qədim diyar ilə Kiçik Asiya, Orta Şərq və Zaqafqaziya ölkələri arasında əlaqələr xüsusilə sıx olub.

Naxçıvanda hələ İslam dini yayılmamışdan əvvəl böyük mədəniyyət formalaşıb, elm, ədəbiyyat inkişaf edib. Bu inkişaf İslam dininin qəbulundan sonra yeni müstəviyə qədəm qoyub.

Böyük şəxsiyyətlər, elm xadimləri yetirib bu torpaq... Müqəddəs kitabımız "Qurani-Kərim"i təsəvvüf üslubunda şərh edən ilk alim kimi tarixə düşən Baba Nemətullah Naxçıvani İslam dünyasına şan və şöhrət gətirib, bu dinin elmi baxımdan öyrənilməsinə əvəzsiz töhfələr bəxş edib. Qədim diyarın digər bir elm xadimi, "Şərqin böyük dahisi" adlandırılan, bu gün də Avropada əsərləri hərtərəfli tədqiq olunan Nəsirəddin Tusi elmin müxtəlif sahələri ilə dərindən maraqlanıb, astronomiya, riyaziyyat, fizika, tibb, fəlsəfə, etika, məntiq və elmin digər sahələrinə həsr olunmuş əsərlər yazıb. Memar Əcəmi Naxçıvani özünün əsrlərə şahidlik edən şah əsərləri ilə İslam dünyasında memarlığın inkişafında inqilabi yeniliklərə imza atıb.

Tarixi-mədəni abidələri bu gün qədim diyarın dünənindən soraq verir. Bəşəriyyətin ikinci atası sayılan Nuh Peyğəmbərin məzarüstü abidəsi, İslam Peyğəmbərinin övladlarının uyuduğu imamzadələr, adı müqəddəs "Qurani-Kərim"də çəkilən Əshabi-Kəhf mağarası, Duzdağ mağaraları, Möminə xatın türbəsi məhz beşminillik bu şəhərin adı ilə yanaşı çəkilir. Gəmiqaya abidələri, Qazma, Oğlanqala, Gilançay, Kültəpə arxeoloji abidələri, saysız-hesabsız təbiət möcüzələri Naxçıvanın tarix yaddaşıdır. Bütün bunlar dünya xəritəsində həcmcə çox kiçik bir ərazidə böyük bir potensial olduğunun göstəriciləridir.

Ancaq bu da reallıqdır ki, müxtəlif tarixi dövrlərdəki ictimai-siyasi şərait Naxçıvanın öz qiymətini almasına imkan verməyib. Yalnız Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra, daha doğrusu, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Naxçıvanın yenidən öyrənilməsinə, tədqiq olunmasına başlanılıb.

Son 22 il ərzində Naxçıvanda 300-dən artıq mədəniyyət və turizm obyekti inşa olunaraq və ya əsaslı təmir edilərək istifadəyə verilib. 2006-2017-ci illərdə muxtar respublikada aparılan araşdırmalar zamanı 1200-dən çox abidə qeydə alınaraq pasportlaşdırılıb. Həmin abidələrin böyük əksəriyyəti bərpa edilib.

Muxtar respublikada fəaliyyət göstərən 530-dan çox mədəniyyət, incəsənət və turizm müəssisəsi burada insanların mədəni istirahətinin təmin olunmasında mühüm rol oynayır. 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında cəmi 13 muzey fəaliyyət göstərirdisə, hazırda Naxçıvanda 30-dan artıq müxtəlifprofilli muzey fəaliyyət göstərir. Bu mədəniyyət ocaqlarında xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 115 mindən çox eksponat toplanıb və bunların sayı hər keçən gün daha da artmaqdadır.

Çoxsaylı tarixi abidələrin bərpası, müxtəlif ərazilərdə arxeoloji tədqiqatların aparılması, regionun tarixi, mədəniyyəti, milli dəyərləri ilə bağlı müxtəlif ədəbiyyatların nəşri Naxçıvan haqqında zəngin məlumatları ortaya çıxarmaqla bərabər, ildən-ilə bura axışan turistlərin də sayının artmasında mühüm əhəmiyyət kəsb edir.

***"Mədəniyyəti inkişaf etdirmək milləti inkişaf etdirmək, xalqı sivilizasiyaya qovuşdurmaq, milli ruhu yaşatmaq deməkdir"*** fikrini öz fəaliyyətinin tərkib hissəsinə çevirmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvanın tarixi və mədəniyyətinin araşdırılması, öyrənilməsi və nəhayət, tanıdılması ilə bağlı həyata keçirdiyi tədbirlərin də əsas məqsədi bu potensialı üzə çıxarmaq, təbliğ etməkdən ibarətdir.

Naxçıvan artıq İslam Mədəniyyətinin Paytaxtıdır. Muxtar respublikada yaradılan müasir infrastruktur İslam Mədəniyyətinin Paytaxtı üçün vacib olan bütün şərtlərə yüksək səviyyədə cavab verir. İslam Konfransı Təşkilatının tərkibinə daxil olan ölkələrin hər birinin nümayəndəsi bunu Naxçıvana gələndə gördü. Mötəbər tədbirlərin keçirilməsi zamanı dünya mediasının diqqəti qədim diyara yönəldi. Mədəniyyət paytaxtlarına aid saytlarda, beynəlxalq informasiya agentliklərində şəhərimizin tarixi və mədəni irsi təbliğ edildi, keçirilən tədbirlər haqqında ətraflı məlumatlar verildi. Bu, muxtar respublikada formalaşan böyük mədəniyyətin, onun zəngin turizm potensialının təkcə İslam ölkələrində deyil, həm də dünyada təbliği baxımından əvəzsiz imkanlar yaratdı. Həyata keçirilmiş tədbirlər və digər mütərəqqi təşəbbüslər sayəsində muxtar respublikamız bütün dünyada həm 28 illik blokadaya baxmayaraq, yüksək sürətlə inkişaf edən, beynəlxalq tədbirlərin keçirilməsində böyük təcrübəyə malik olan bir diyar kimi, həm də qeyri-adi istedadların doğulduğu və inkişaf etdiyi, milli dəyərlərin yaşadıldığı, dini həmrəyliyin təmin olunduğu, Azərbaycan xalqının böyük mədəniyyətinin ən qədim dövrlərdən bəri qorunub saxlanıldığı və zaman keçdikcə daha da zənginləşdirilərək dünya mədəniyyət xəzinəsinə bənzərsiz bir töhfə verən gözəl bir məkan kimi tanındı.

***Burada bir incə məqam da ondan ibarətdir ki, keçiriləcək tədbirlər sırf mədəni xarakter daşımaqla bərabər, Naxçıvanın beynəlxalq müstəvidə siyasi çəkisini də ortaya qoyur. Məlum olduğu kimi, tarixin müxtəlif dövrlərində qədim diyarımıza bir sıra əsassız iddialar irəli sürülüb. Bu iddialar Naxçıvanın tarixinin, coğrafiyasının, mədəniyyətinin, ümumilikdə isə varlığının şübhə altına salınması məqsədi daşıyıb. Lakin indi Naxçıvan ötən əsrin əvvəlləri və sonunda böyük taleyin əsdirdiyi fırtınalarla üz-üzə qalan Naxçıvan deyil. Bu gün artıq Naxçıvanın dünyaya öz iddiaları və tələbləri var. Görülmüş və görüləcək işlər bu iddiaları daha açıq şəkildə ortaya qoyur. Zəngin baza, dinamik inkişaf və mütərəqqi ideyaların formalaşdırıldığı qədim Azərbaycan diyarı Naxçıvanın bəşər sivilizasiyasına bundan sonra da deyəcək çox sözü var.***

**Muxtar MƏMMƏDOV**

Turizm

# Kənd turizmi mənalı istirahətin ən sərfəli növüdür

***İsti yay günlərində kənddə istirahət edib, mənalı asudə vaxt keçirmək çoxlarının arzusudur. İndi dincəlmək üçün çoxlu pul xərcləyib uzaq səyahətlərə çıxanlarla bərabər, yaşadığı şəhərdən cəmisi bir-iki saatlıq məsafədə yaşıllıq içərisindəki kəndləri seçənlər də vardır. Bu mənada, inkişaf etmiş ölkələrdə populyarlıq qazanan kənd turizmi növünə ölkəmizdə, o cümlədən Naxçıvanda maraq artmaqdadır. Zəngin təbii turizm ehtiyatlarımız və yenilənmiş sosial infrastruktur buna şərait yaradan əsas amillərdəndir.***



Şübhəsiz, bu qızmar yay günlərində ucqar dağ kəndlərinin sərin havası şəhər sakinləri üçün əsl turizm motividir. Doğrudan da, şəhərdə kondisionerlərin gecə-gündüz işlədiyi belə havalarda muxtar respublikamızın dağ kəndlərində əsl təbii sərinlik vardır. Bu kəndlərin buz kimi soyuq sularından içən, günboyu yamyaşıl bağ-bağçaların kölgəliklərində dincəlib gözəl vaxt keçirən bir daha buralara can atır. Həm də tək deyil, ailəliklə, dost-tanışlarla birgə.



Hazırda muxtar respublikamızda kənd turizminin inkişafı diqqət mərkəzindədir. Belə ki, bu turizm növünün kəndin ehtiyatlarından istifadədə, əhali məşğulluğunun təmin olunmasında mühüm əhəmiyyəti vardır. Aparılan maarifləndirmə işləri bu sahədə öz bəhrəsini verməyə başlayıb. Artıq çox sayda şəhər sakini kənd evlərini kirayə etməklə öz istirahətini burada keçirir.

Kənd turizmi, adından da göründüyü kimi, yaşıl təbiəti, burada yaşayan insanların həyat tərzi, məişəti və məşğuliyyəti şəhərdən xeyli dərəcədə fərqlənən kənd ərazilərində təşkil olunan fəal istirahət növüdür. Bu həm də ekoturizmin bir yarımnövüdür. Kənd turizmi zamanı çox sayda pullu xidmətlər təklif oluna bilir: yerləşdirmə, qida, gəzinti, əyləncə, bələdçilik, ticarət, nəqliyyat və digər belə xidmətlər yerli əhali üçün yaxşı gəlir mənbəyidir.

Kənd turizmi, həm də iqtisadi cəhətdən çox sərfəlidir. Burada xərclər aşağı, gözlənilən gəlirlər isə nisbətən çoxdur. Bu turizm növünün təşkili zamanı digərləri ilə müqayisədə qarşıya çıxan başqa çətinliklər də yoxdur. Məsələn, bu turizm növündə turistlər üçün viza, yaxud rezervasiya, yerli əhali üçün isə xarici dil bilmə və yaxud təhlükəsizlik problemləri hiss olunmur. Bunlardan əlavə, öz evinin, yaxud həyətinin müəyyən bir hissəsini kirayə verən və turistlərə qida servisləri göstərən kəndli həm də yaxşı gəlir edir. Bu gün kəndlərimizdə sürətlə yenilənən infrastruktur şəraiti, əhali gəlirlərinin artması ilə onların mənzil-məişət şəraitinin yaxşılaşması da burada özünü göstərən faktorlardandır. Şübhəsiz, şəhərli turistlər üçün kəndin ekzotikası, burada onlar üçün qeyri-adi olan cazibədar kənd mənzərələri, maraqlı adət-ənənələr, ekoloji təmiz və unikal menyu ilə hazırlanan mətbəx nümunələri əsas motiv olsa da, müasir standartlara uyğun yerləşmə şəraiti də vacib şərtlərdən sayılır. Şəhərlə kəndin həyat səviyyəsi arasındakı fərqin aradan qaldırılması istiqamətində dövlətimizin həyata keçirdiyi tədbirlər kənd evlərində şəhər komfortunun təşkili üçün müsbət zəmin yaradıb.

Kənd turizmi mövsümi turizmdir və onun təşkil olunması üçün çox ciddi tanıtım və ya reklam işləri tələb olunmur. İndi kəndlərimizdə yaradılmış şərait özü ən güclü reklamdır. Yaxşı reklam üçün yalnız şəraiti olan kənd evləri haqqında məlumatların internetdə yerləşdirilməsi və bunlarla əlaqədar müəyyən bir əlaqə nömrəsinin olması kifayətdir. Kəndlərimizin milli qonaqpərvərliyini də bəri başdan tanıtmağa ehtiyac yoxdur. Sadə kənd mühiti, kəndin primitiv, ancaq təmiz və gözəl həyat tərzi, şəhərin səs-küyündən tamamən fərqli olan səssizlik, buz bulaqlar, ilboyu aşıb-daşan meyvə, bir-birindən maraqlı müxtəlif təsərrüfat işləri və sair kəndlərin əsas cazibə elementlərindəndir.

Kəndlərimizin sosial həyatı da zəngin və mənalıdır. Buna görə də kəndlilərin turistlərə göstərə biləcəyi yataq, yemək və sair kimi zəruri xidmətlərdən başqa onlara digər peşəkar xidmətlərin də göstərilməsi maraqla qarşılanar. Kəndin səhər saat 5-dən başlayıb, axşam qaranlıq düşənə qədər davam edən qaynar həyatı ilə iç-içə yaşayan turistlər uzun müddət bunun təəssüratlarını unutmurlar. Hələ axşama yaxın kəndlərdəki qaynar həyat şəhərli balacalar üçün əsl nağıllardakı kimidir. Xüsusən kəndə istirahətə gəlmiş uşaqların buradakı həmyaşıdları ilə yeni tanışlıqları onlar üçün göydəndüşmədir. Bu baxımdan ilin əksər dövrlərində gününü kompüter və telefonla keçirən məktəblilərin heç olmasa, bir ay belə təbiətin qoynunda, yorucu cihazlardan uzaq olması üçün məhz kəndin təbiətlə həmahəng zəngin sosial həyatını buradakı uşaqlarla birgə yaşaması və yeni dostlar qazanması vacibdir. Eləcə də yaşlı insanların kəndə xas zəngin rekreasiya qazanması üçün kənd turizminin əvəzi yoxdur, – desək, yanılmarıq.

Muxtar respublikamızda kənd turizminin inkişaf perspektivləri yüksəkdir. Ötən illərdən başlayaraq Ordubad, Şahbuz və digər rayonlarda bu faydalı turizm növünün inkişaf etdirilməsi məqsədilə maarifləndirici tədbirlər də keçirilib. Naxçıvan Turizm-İnformasiya Mərkəzinin saytında muxtar respublikanın dağ kəndlərində turistlərin qala biləcəyi evlər haqqında məlumatlar yerləşdirilib. Bu məlumatlarla tanış olan turistlər asanlıqla ev kirayə edib, Naxçıvanın gözəl səfalı kəndlərində istirahət edə bilərlər.

**Əli CABBAROV**

## Qarabağlar Türbə Kompleksinə ekskursiya



*Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin təşkilatçılığı ilə "Naxçıvan" Universiteti tələbələrinin Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən Qarabağlar Türbə Kompleksinə ekskursiyası təşkil edilib.*

Kompleksdə Naxçıvan Turizm-İnformasiya Mərkəzinin direktoru Gülnarə Sadiqova çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamına uyğun olaraq Kəngərli rayonunun Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksi də elmi və tarixi əsaslarla bərpa edilib.

Qeyd olunub ki, bu ekskursiyanın təşkilində məqsəd muxtar respublikanın tarixi yerlərini və turizm məkanlarını gənclərə tanıtmaq, bu zaman çəkilmiş fotoşəkillərin gənclər tərəfindən müxtəlif sosial şəbəkələrdə paylaşılaraq muxtar respublikanın təbliğində onların da fəallığını artırmaqdır.

Sonra ekskursiya iştirakçıları abidə və kompleksin xanəgah hissəsində nümayiş etdirilən eksponatlarla tanış olublar. Burada xalqımızın həyat tərzini əks etdirən qədim məişət əşyaları, ərazidə aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət nümunələri özünə yer alıb.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Gülcamal TAHİROVA**

## 2018-ci ilin birinci yarısında 455 elmi əsər işıq üzü görüb



*AMEA Naxçıvan Bölməsi 2018-ci ilin birinci yarısında bir sıra əhəmiyyətli uğurlar əldə edib. Qeyd edək ki, hesabat dövründə bölmədə 6 elmi istiqamət üzrə 7 mövzunu əhatə edən 36 iş yerinə yetirilib. Tədqiqatlarda 2 akademik, 4 akademiyanın müxbir üzvü, 6 elmlər və 50 fəlsəfə doktorları, həmçinin doktorant və dissertantlar iştirak ediblər.*

Bölmə əməkdaşlarının müvafiq dövr ərzində 455 elmi əsəri nəşr edilib. Onlardan 2 monoqrafiya, 52 elmi məqalə və 48 konfrans materialı olmaqla, ümumilikdə, 102-si xaricdə çap olunub. Elmi məqalələrdən 11-i impakt-faktorlu jurnallarda işıq üzü görüb. 124 qəzet materialı çap edilib, 7 buklet tərtib olunub. 5 kitab, 301 məqalə isə nəşrə təqdim edilib.

Bundan əlavə, "Xəbərlər" və "Axtarışlar" jurnallarının iki nömrəsi çapdan çıxıb. "Qarabağlar Türbə Kompleksi" kitabı üç dildə (Azərbaycan, ingilis və rus dillərində) nəşr olunub. 2018-ci ilin birinci yarısında "Naxçıvan coğrafiyası" kitabının ikinci cildi çapa təqdim edilib. Bölmə əməkdaşları tədqiqat dövründə 4 patent hazırlayıblar. Bölmədə 9 konfrans, 4 iclas, 13 seminar, 12 kitab təqdimatı, habelə oxunması zəruri olan 4 kitabın müzakirəsi keçirilib. Qurumun 40 əməkdaşı respublikada və xaricdə keçirilən 20 beynəlxalq tədbirdə məruzələrlə çıxış edib.

Əməkdaşlar Qazaxıstandakı Beynəlxalq Türk Akademiyası, Türkiyə Cümhuriyyətinin İstanbul, Bitlis-Ərən, Ərzurum, Sakarya, İqdır universitetləri, İran İslam Respublikasının Tehran Şəhid Beşişdi, Təbriz Dövlət universitetləri, Təbriz Milli Kitabxanası, Krım Astrofizika Rəsədxanası və Rusiya Federasiyasının Moskva Dövlət, Tomsk universitetləri, Yer Maqnetizmi, İonosferi və Radio Dalğalarının Yayılması İnstitutu, Ümumdünya Təbiəti Mühafizə Fondu, ABŞ və Fransanın elm və təhsil müəssisələri və digər ölkələrin alimləri ilə səmərəli əməkdaşlıq ediblər. Bölmədə yerinə yetirilən iki qrant layihəsinə cari ilin ilk aylarında yekun vurulub, digər ikisinin icrası isə davam etdirilir.

Birinci yarımildə bölmənin Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov və həmin institutun Hidrogeologiya və mineral sular laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədovanın "Təbii suların geokimyası və Naxçıvan Muxtar Respublikasında yayılma xüsusiyyətləri" kitabı 38-ci Beynəlxalq Paris Luvr kitab sərgisinin qızıl medalına və Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində keçirilən V Beynəlxalq Moskva Təhsil sərgisinin diplomuna layiq görülüb. Hesabat dövründə Beynəlxalq Birləşmiş Elmlər Akademiyasının üzvü və Rusiya Təbiətşünaslıq Akademiyasının professoru seçilən kimya üzrə fəlsəfə doktoru Fizzə Məmmədova, eyni zamanda "Elmin qızıl fondu" milli proqramı çərçivəsində Rusiya Təbiətşünaslıq Akademiyasının "Əməkdar elm və texnika xadimi" fəxri adına layiq görülüb. Elmi əməkdaşlardan kimya üzrə fəlsəfə doktoru Günel Məmmədova İngiltərədə nəşr olunan "Qeyri-üzvi kimya" jurnalının məsləhətçi redaksiya heyətinin üzvü və Çinin Hangzhou şəhərində keçirilən "Ətraf mühit və geoelm" beynəlxalq konfransına rəyçi, Beynəlxalq Seolit Assosiasiyasına üzv seçilib, Patent və əmtəə nişanları mərkəzi tərəfindən keçirilən ixtiraçılıq sahəsində beşinci respublika müsabiqəsində yer tutaraq mükafatlandırılıb. Bölmə əməkdaşları müxtəlif fəxri fərmanlarla təltif olunublar.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Tarix-Diyarşünaslıq Muzeyinə 140 eksponat təqdim olunub

İyulun 11-də Babək rayon sakinləri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev, Zaleh Novruzov, Sidiqə Seyidova və İsmayıl Qurbanov tərəfindən qədim mədəniyyətimizi və tariximizi əks etdirən məişət və təsərrüfat



əşyaları, numizmatika, toxuculuq nümunələrindən ibarət 140 eksponat Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyinə təqdim edilib.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova bildirib ki, muxtar respublikada tariximizin, mədəniyyətimizin, adət-ənənələrimizin araşdırılması, qorunması və gələcək nəsillərə çatdırılması diqqət mərkəzində olan məsələlərdəndir.

Nazir qeyd edib ki, bu gün muzey ziyarətçilərimizin sayı əhəmiyyətli dərəcədə artıb və muzey işçilərinin öhdəsinə daha böyük vəzifələr qoyulub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına əsasən muxtar respublikanın nazirlik, komitə və təşkilatlarının kollektivləri mütəşəkkil şəkildə muzeyləri ziyarət edirlər. Bu ilin 6 ayı ərzində muxtar respublikanın muzeylərini 284 min 720 nəfər tamaşaçı ziyarət edib ki, onlardan 95 min 619 nəfəri əcnəbi vətəndaşlardır. Muxtar respublikamızda fəaliyyət göstərən muzeylər ilə orta məktəblər arasında distant, həmçinin yetişməkdə olan gənc nəsil üçün açıq dərslər təşkil edilir. Ötən dövr ərzində 219 açıq, 2 distant, 6 elektron dərs keçilib. Cari ilin birinci yarımili ərzində muzeylərdə, ümumilikdə, tarixi və əlamətdar günlərə bağlı 79 sərgi, 21 tədbir təşkil edilib.

"Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır", – deyən Natavan Qədimova bildirib ki, bu ilin 6 ayı ərzində muxtar respublika muzeylərinə 670 ədəd yeni eksponat daxil olub. Bu müddət ərzində AMEA-nın Naxçıvan Bölməsinin Əlyazmalar Fonduna qədim tarixə malik əlyazma və kitabların təqdimatı da daxil olmaqla, ümumilikdə, 3 dəfə eksponat təqdimatı keçirilib.

Nazir göstərilən diqqət və qayğıya görə tədbir iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə Akif Hacıyev, Zaleh Novruzov, İsmayıl Qurbanov və Sidiqə Seyidova çıxış edərək muxtar respublikada maddi-mədəni irsimizin qorunub yaşadılması və gələcək nəsillərə çatdırılması sahəsində keçirilən tədbirlərin əhəmiyyətindən danışıblar.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

# “Hünər” XII Vətənpərvərlik Mahnıları Festivalı və konsert proqramı təşkil edilib

*Naxçıvan şəhərinin 2018-ci il üçün Gənclər Paytaxtı seçilməsi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illk yubileylərinə həsr olunmuş “Hünər” XII Vətənpərvərlik Mahnıları Festivalının 10 iyul 2018-ci il tarixdə Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində seçim mərhələsi keçirilib.*










Azərbaycanı tərənnüm edən vətənpərvər ruhlu xalq və bəstəkar mahnılarının gənclər arasında təbliğ edilməsi, bu sahədə gənclərin yaradıcılıq potensialının üzə çıxarılması və vətənpərvərlik hisslərinin yüksəldilməsi məqsədilə keçirilən festivalda muxtar respublikanın şəhər və rayonlarından 18-29 yaş arasında 25 gənc solo və musiqi aləti ilə xalq və estrada mahnıları ifa edib. Festivalın seçmə mərhələsində iştirak edən 10 gənc Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Azərbaycan Respublikasının Xalq artisti Mübariz Tağıyev, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Azərbaycan Respublikasının Xalq artisti, Azərbaycan Bəstəkarlar İttifaqının üzvü Eldar Mansurov, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü, “Humay” mükafatı laureatçısı Baba Vəziroğludan ibarət münsiflər heyəti tərəfindən final mərhələsinə vəsiqə qazanmışdır.

Dünən keçirilən final mərhələsində Culfa rayon təmsilçiləri Nazil Qulusoy, Aqil Adilzadə, Nicat Hüseynov, Babək rayon təmsilçisi Məqsəd Hacıyev, Şahbuz rayon təmsilçisi Bayram Qubadlı, Kəngərli rayon təmsilçisi Sevinc Ağalarova, Naxçıvan şəhər təmsilçisi Əfsanə Babayeva, İlkin Abdullayev və Samir İsmayılov çıxış ediblər. Tamaşaçılar tərəfindən iştirakçıların çıxışları alqışlarla qarşılanmışdır.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov qalibləri təbrik edərək bildirmişdir ki, Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman nazirliklərinin, Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar “Hünər” XII Vətənpərvərlik Mahnıları Festivalı keçirilir. Tədbir Naxçıvan musiqiçilərinin və Naxçıvan gənclərinin ürəyincədir. Mədəniyyətin təbliğ edilməsində musiqinin xüsusi yeri olduğunu vurğulayan gənclər və idman naziri doğma Naxçıvanın ölkəmizin Gənclər Paytaxtı seçilməsi münasibəti ilə gəncləri və festivalın qaliblərini təbrik edib.

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini İntiqam Babayev və Azərbaycan Respublikasının Xalq artisti Mübariz Tağıyev çıxış edərək bildiriblər ki, keçirilən tədbir muxtar respublikada istedadlı gənclərin üzə çıxarılmasında mühüm əhəmiyyət daşıyır. Qeyd olunub ki, müsabiqədə iştirak edən gənclər xüsusi istedada malikdir və edilən seçim tam ədalətlidir.

Sonra mükafatlandırılma başlayıb. Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov, Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini İntiqam Rəhimov və Azərbaycan Respublikasının Xalq artisti Mübariz Tağıyev mükafatları təqdim ediblər. I yerə İlkin Abdullayev, II yerə Əfsanə Babayeva, III yerə isə Samir İsmayılov layiq görülüblər. Qaliblər və fərqlənən 7 nəfər iştirakçı diplom, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə bağlı keçirilən tədbirin davamı olaraq Heydər Əliyev Muzeyinin qarşısında muxtar respublika sakinlərinin istirahətini daha da maraqlı etmək üçün Bakı şəhərindən dəvət olunmuş müğənnilərin ifasında konsert proqramı təşkil edilib. Konsert proqramında tanınmış müğənnilər Sevil və Sevinc Səfərova bacıları, Aysel Əlizadə, Zaur Əmiraslanov və Elnur Məmmədov çıxış ediblər. Muxtar respublika sakinlərinə əsl mənəvi zövq bəxş edən, zəngin repertuara malik konsert proqramı alqışlarla qarşılanıb.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

## Növbəti əmək yarmarkası keçirilib

*Məşğulluq tədbirlərinin çevik formalarından biri də muxtar respublikanın bütün bölgələrində ildə bir neçə dəfə keçirilən əmək yarmarkalarıdır.*

Dünən Culfa rayonunda növbəti əmək yarmarkası keçirilib. Tədbiri giriş sözü ilə açan rayon Məşğulluq Mərkəzinin direktoru Yalçın Hüseynov bildirib ki, yarmarkanın keçirilməsində əsas məqsəd işəgötürənlərlə işaxtaran vətəndaşların bilavasitə qarşılıqlı ünsiyyətinin təşkil edilməsi və bununla da, işəgötürənlərin qısa vaxt ərzində müasir tələblərə cavab verə bilən ixtisaslı, peşəkar, təcrübəli kadr seçiminə geniş imkanlar yaratmaq, eyni zamanda işaxtaran vətəndaşların mövcud vakant iş yerləri haqqında məlumat almalarına və layiqli işlə təmin olunmalarına köməklik göstərilməsini təşkil etməkdir. Yarmarkalara hazırlıq dövründə həyata keçirilən təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin və işaxtaran vətəndaşların fəal iştirakını təmin edir.

Culfa Rayon İcra Hakimiyyətinin əməkdaşı Orxan Ələkbərli rayonda son illərdə həyata keçirilən infrastruktur quruculuğundan, sahibkarlığa göstərilən dövlət dəstəyindən və aqrar sahənin inkişafı istiqamətində görülən işlərdən bəhs edib.

Sonra yarmarkaya gələnlər onlara təqdim edilən boş iş yerləri ilə tanış olublar. 25 təşkilatdan 87-si dövlət, 25-i özəl sektor olmaqla, 112 boş iş yerinin çıxarıldığı yarmarkada 24 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

## Yanğın təhlükəsizliyi tədbirləri gücləndirilir

***Meşələrin və digər təbiət ərazilərinin yanğın təhlükəsindən qorunması üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi aidiyyəti dövlət qurumları ilə birlikdə tədbirlər həyata keçirir. Bu sahədə fəaliyyətin operativliyini təmin etmək məqsədilə nazirliyin Meşə təsərrüfatı idarəsində lazımi avadanlıq və nəqliyyatla təmin edilmiş xüsusi qərargah yaradılıb.***



Bu tədbirlər çərçivəsində yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə dövlət meşə fondu ərazilərində, insanların istirahət etdiyi və təsərrüfat fəaliyyəti göstərilən digər təbiət ərazilərində seminar-müşavirə, praktik təlim işlərinin aparılması davam etdirilir. Belə ki, adıçəkilən nazirliklər meşələrin və digər təbiət ərazilərinin təbiət hadisələri və antropogen təsirlərdən baş verə biləcək yanğınların qarşısının alınması, qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə hazırlanmış tədbirlər planı çərçivəsində Şahbuz Dövlət Təbiət Qoruğu və qoruğa sərhəd ərazilərdə fəaliyyət göstərən arıçı təsərrüfat sahibləri və fermerlərlə görüş keçirilib, söhbətlər aparılıb, yanğın təhlükəsizliyi qaydaları ilə təlimatlandırılıblar. Onlara bildirilib ki, qoruğun mühafizə işçiləri əraziləri daim nəzarətdə saxlamalı, bu ərazilərdə istirahət edən insanları yanğın hadisəsinin baş verməməsi üçün məlumatlandırmalı və gücləndirilmiş iş rejimi tətbiq edilməli, xüsusilə qoruq ərazisindən keçən yolun ətraf ərazilərində quru otlar təmizlənməli, ərazidə mütəmadi suvarma işləri aparılmalıdır.

Qeyd olunub ki, meşədə yanğınlara yol verilməməsi üçün yanğın təhlükəsizliyi istiqamətində bir sıra qaydalara əməl edilməsi zəruridir. İlk növbədə, meşə ərazilərində tonqallar yandırılmamalı, digər ərazilərdə yandırılmış ocaqların tam söndürülməsinə əmin olmadan ərazini tərk etməməli, həmin ərazilərə yanmaya həssas məmulatlar atılmamalıdır. Turist istirahət zonaları, meşələrdə keçirilən kütləvi tədbirlər zamanı tonqallar əraziyə nəzarət edən müvafiq qurum tərəfindən ayrılan xüsusi yerlərdə qalanmalıdır.

Taxıl tədarükü və ot yığımı ilə əlaqədar olaraq yanğın təhlükəsizliyi qaydalarına əməl edilməsi zəruridir. Bu sahədə təhlükəsizliyin təmin edilməsi üçün kənd təsərrüfatı texnikalarının texniki sazlığı diqqətdə saxlanılmalıdır. Meşə zolaqları, müxtəlif təyinatlı yollar taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərti ilə şumlanmalıdır.

Meşələrimizi, taxıl zəmilərimizi, ot topladığımız və digər təbiət ərazilərimizi yanğından mühafizə etmək üçün yanğın təhlükəsizliyi qaydalarına əməl etməliyik.

**Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti**

## Muxtar respublika idmançıları 152 medal qazanıb

***Muxtar respublikada gənclər və idman siyasəti uğurla həyata keçirilir. 2018-ci ildə də bu sahədə qarşıya qoyulan vəzifələr yerinə yetirilib.***

Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar Ağbulaq İstirahət Mərkəzində muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinin iştirakı ilə gənclərin qış məktəbləri təşkil olunmuş, “Naxçıvan Gənclər Paytaxtıdır” mövzusunda fotomüsabiqə keçirilmişdir. Bundan başqa, “Ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu” mövzusunda konfrans keçirilmiş, Əcəmi seyrəngahında muxtar respublikanın incəsənət xadimlərinin və Bakı şəhərindən dəvət olunmuş müğənnilərin ifasında konsert proqramı təşkil edilmişdir. Naxçıvan şəhəri ətrafında və muxtar respublikanın rayonlarında “Gənclər bağı” salınmışdır. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə əlaqədar gənclərin “Qurtuluşdan Əlincəqalaya” devizi altında yürüşü təşkil edilmiş, “Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik ənənələri və varislik” mövzusunda lektoriya, “Heydər Əliyev Gənclər Məktəbi”nin dinləyicilərinə açıq dərs keçilmiş, “Hakimiyyətin yükü” adlı sənədli film nümayiş olunmuşdur. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə əlaqədar gənclərin muzey və tarixi abidələrə ekskursiyaları olmuşdur. Gənclər və idman sahəsində həyata keçirilən tədbirlərin daha geniş işıqlandırılması məqsədilə nazirliyin *www.naxgin.az* saytı yaradılmışdır.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda 16 idman tədbiri keçirilmişdir ki, bu tədbirlərdən 3-ü beynəlxalq, 1-i futbol üzrə “Heydər Əliyev kuboku” uğrunda turnir, 12-si muxtar respublika səviyyəli yarışlar olmuşdur. Ümumilikdə, bu idman yarışlarında 1652 idmançı iştirak etmişdir. 2018-ci ilin birinci yarısında muxtar respublika idmançıları ölkə birinciliklərində 78, beynəlxalq turnirlərdə 71, dünya çempionatında 2, Avropa çempionatında 1 olmaqla, cəmi 152 medal qazanmışlar.

## Voleybol üzrə rayon birinciliyi

Culfa Rayon Gənclər və İdman İdarəsinin və Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının Culfa Rayon Bölməsinin birgə təşkilatçılığı ilə rayonun şəhər və kənd komandaları arasında “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında kişilər arasında voleybol üzrə rayon birinciliyi keçirilib. Yarışda 8 komanda iştirak etməklə 96 gənc idmana cəlb edilib.

İlk olaraq Culfa şəhər 3 nömrəli tam orta məktəbin idman zalında Əbrəqunus kənd-Yaycı kənd komandaları qarşılaşıblar. Bənəniyar və Əbrəqunus kənd komandaları növbəti turda oynamaq şansı əldə ediblər.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

**İtmişdir**

Səbzəliyev Muxtar Tahir oğluna verilmiş çavuş vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 499